

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 119 (23.281)

*2 iyul 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 29 iyun tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, beynəlxalq əhəmiyyətli kütləvi tədbirlər zamanı ictimai təhlükəsizliyin təmin edilməsində və xüsusi tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır.

**Həsənov Qasım Həsən oğlu**
**- polis polkovniki**

**Mustafayev Mustafa Vəli oğlu**
**- polis polkovniki**

"Vətən uğrunda" medalı ilə,

**Əliyev Taryel Məmməd oğlu**
**- polis mayoru**

"İgidliyə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ukraynanın ölkəmizdəki səfiri ilə görüşüb

İyulun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski ilə görüşmüşdür.

Ali Məclisin Sədri səfiri muxtar respublikada görməkdən məmnunluğunu ifadə etmişdir.

Vladislav Kanevski Naxçıvana səfərə mühüm əhəmiyyət verdiklərini bildirmiş, göstərilən diqqətə görə minnətdarlıq etmişdir. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdən danışan səfir Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafını bu baxımdan mühüm amil kimi dəyərləndirmiş, qarşıdakı dövrdə səylərini artıracağını bildirmişdir.

Ali Məclisin Sədri blokada şəraitində yaşamasına baxmayaraq Azərbaycanın Naxçıvan Muxtar Respublikasında tələbatın yerli istehsal hesabına ödənildiyini və ərzaq təhlükəsizliyinin təmin olunduğunu diqqətə çatdırmışdır. Naxçıvan Muxtar Respublikası ilə Ukrayna



arasında iqtisadi-ticarət əlaqələrinin həcminin artan dinamika ilə davam etdiyini bildirən Ali Məclisin Sədri ali və ümumtəhsil məktəbləri arasındakı qarşılıqlı əməkdaşlıqdan danışmış, əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Bakıda Beynəlxalq Şahmat Federasiyasının Prezident Şurasının iclası keçirilib



*Beynəlxalq Şahmat Federasiyasının (FİDE) Prezident Şurasının Bakıda keçirilən iclasına iyunun 29-da yekun vurulub.*

İclasda FİDE prezidenti Arkadi Dvorkoviçin rəhbərliyi ilə Prezident Şurasının üzvləri, FİDE-nin və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, ali şahmat qurumunun qitələr üzrə rəhbərləri və rəsmiləri iştirak ediblər.

İkigünlük toplantıda 40-a yaxın məsələ müzakirə edilib, təkliflər irəli sürülüb, fikir mübadiləsi aparılıb və müzakirəyə çıxarılan məsələlərlə bağlı qərarlar qəbul olunub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

***2019-cu ilin iyun ayının son 15 günü ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul olunmuşdur.***

Belə ki, 2019-cu il 20 iyun tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası"nın təsdiq edilməsi haqqında" və "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları" təsdiq edilmişdir. Bu Qaydalar muxtar respublikada peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkilini, imtahanların keçirilməsini və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılmasını, habelə peşəkar mühasib sertifikatının formasını müəyyən edir. Həmçinin Qaydaya əsasən peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestri (bundan sonra – dövlət reyestri) Maliyyə Nazirliyi tərəfindən kağız və elektron daşıyıcılarda tərtib edilir və Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir.

Eyni zamanda "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 noyabr tarixli 73 nömrəli Qərarında dəyişiklər edilmişdir.

"İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 19 oktyabr tarixli 103 nömrəli Qərarında da dəyişikliklər edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Veteranlar Şurasının ilk hesabat yığıncağı olub

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Veteranlar Şurasının 2019-cu ilin birinci yarısında gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı nazirlikdə ümumi yığıncağı keçirilib. Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov, nazirlik aparatının aid xidmətlərinin, şəhər, rayon polis idarə, şöbələrinin, ictimai təhlükəsizlik bölmələrinin rəisləri və polis veteranlarının iştirak etdikləri yığıncaqda şuranın sədri, istefada olan polis polkovniki Yusif Həsənovun hesabat məruzəsi dinlənilib.*

Şura sədri bildirib ki, 2018-ci ilin oktyabr ayında keçirilən ilk ümumi yığıncaqdan və nazirliyin Veteranlar Şurasının yaradılmasından sonra ərazi polis orqanlarında yığıncaqlar keçirilib, Veteranlar şuraları yaradılıb.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 2018-ci il 30 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının fəaliyyətinin təşkilinə dair Əsasnamə"yə uyğun olaraq şura daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində veteranların təcrübəsindən istifadə edir.

Məruzə ətrafında müzakirələrdə çıxış edənlər muxtar respublikada polis veteranlarına göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Yığıncağın qərar layihəsi oxunduqdan sonra Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov çıxış edib. O bildirib ki, Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən ulu öndər yoluna sədaqət və dəqiq düşünülmüş idarəetmə sistemi nəticəsində möhkəm təməllərə söykənən sosial-iqtisadi inkişaf və əmin-amanlığa nail olunub.

Vurğulanıb ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də muxtar respublikamız əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayının azlığına görə ölkədə ən təhlükəsiz və sabit yerlərdən biri olaraq qalır.

Nazir deyib ki, Naxçıvanda dövlət siyasətinin əsas hədəflərindən biri olaraq gənclərin səmərəli məşğulluğunun təmin edilməsi, onlarla ideoloji işin aparılması, vətənpərvərlik hisslərinin yüksəldilməsi və gənc nəslin vahid dövlət ideologiyası ətrafında birləşdirilməsi prioritet məsələ kimi qarşıya qoyulub, aktiv gənclərin fəaliyyəti muxtar respublikanın təbliğatına, milli-mənəvi dəyərlərin yaşadılmasına və onların zərərli vərdişlərdən, neqativ ünsürlərdən qorunmasına yönəldilib.



Qeyd olunub ki, muxtar respublikada insan amilinə göstərilən ən yüksək qayğının tərkib hissəsi olaraq gənclərlə yanaşı, veteranlar, o cümlədən dövlət orqanlarından təqaüdə çıxanlar da dövlətimiz tərəfindən ciddi himayə olunurlar.

Nazir diqqətə çatdırıb ki, muxtar respublikada yaşayan müxtəlif kateqoriyalardan olan veteranlar hərtərəfli dövlət qayğısı ilə əhatə ediliblər.

Hər il olduğu kimi, 2019-cu il may ayının 9-da veteranların sosial rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən növbəti tədbir bunun bariz nümunəsidir. Həmin tədbirdə bir qrup veterana və sosial himayəyə ehtiyacı olan şəxslərə minik avtomobilləri verilib.

Muxtar respublikada veteranlarla aparılan məqsədyönlü işin başlıca tərkib hissələrindən birini də daxili işlər orqanlarının polis veteranları və təqaüddə olan sabiq polis əməkdaşları ilə aparılan iş təşkil edir.

Vurğulanıb ki, son dövrlər Daxili İşlər Nazirliyi sistemində həyata keçirilən struktur islahatların tərkib hissəsi olaraq polis-vətəndaş həmrəyliyinin bərpasına və ictimaiyyət arasında daxili işlər orqanlarının nüfuzunun qaldırılmasına səbəb olub.

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli Sərəncamı polis veteranlarını da əhatə etməklə onların maddi vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən kompleks tədbirlərin növbəti mühüm mərhələsi olub.

Nazir deyib ki, muxtar respublikada veteranlarla aparılan iş Ali Məclisin Sədri cənab Vasif Talıbovun xüsusi nəzarəti, diqqət və qayğısı ilə əhatələnib və veteranlarla aparılan işin səmərəliliyini artırmaq aidiyyəti dövlət orqanlarının qarşısına əsas vəzifələrdən biri kimi qoyulub. Polis veteranları da bu vəzifələrin layiqincə yerinə yetirilməsində öz köməkliklərini əsirgəmirlər.

Nazir tapşırıq və tövsiyələrini yığıncaq iştirakçılarının diqqətinə çatdırıb, 2 iyul – Azərbaycan Polisi Günü münasibətilə polis veteranlarını və polisləri təbrik edib, onlara cansağlığı, uzun ömür arzulayıb.

Sonra general-leytenant Fazil Ələkbərov polis veteranlarına mükafatlar təqdim edib.

**Muxtar MƏMMƏDOV**

2 iyul Azərbaycan Polisi Günüdür

# Naxçıvan polisi ictimai asayişin etibarlı təminatçısıdır



***Hüquq-mühafizə sistemi müstəqil dövlətin ən mühüm təsisatlarındandır. Dövlətin mühafizəsi, vətəndaşların hüquq və azadlıqlarının təminatı, hüquqi cəmiyyət quruculuğu məsələləri bu sistemin inkişafı ilə birbaşa bağlıdır. Dövlət yalnız mükəmməl hüquqa əsaslananda güclü olur, vətəndaş yalnız demokratik və ədalətli hüquqlarla əhatə olunanda azad olur. Azərbaycanın dövlətçilik tarixində bu ənənələr daim əsas götürülmüşdür. Hüquq-mühafizə sistemində polisin rolu isə bütün dövrlərdə xüsusi əhəmiyyət kəsb etmişdir.***

Azərbaycan müstəqillik qazandıqdan sonra bir tərəfdən ölkədə baş verən daxili çəkişmələr, bir tərəfdən Ermənistanın işğalçılıq siyasəti, bir tərəfdən isə dövlət quruculuğunda iqtidarın səriştəsiz fəaliyyəti ictimai-siyasi vəziyyəti acınacaqlı hala gətirib çıxarmışdı. Həmin dövrdə polis orqanlarının fəaliyyətində də çətinliklər yaranmış, idarəedici heyətdə uyğun olmayan kadr dəyişiklikləri aparılmışdır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan polisi ön cəbhədə döyüşlərdə iştirak etmiş, eyni zamanda daxili sabitliyin qorunmasına töhfə vermişdir. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra hüquq-mühafizə orqanları yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdən etibarən polis orqanlarının fəaliyyəti üçün də hərtərəfli şərait yaradılmış, ciddi kadr islahatları aparılmış, ictimai asayişin qorunması və vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Sağlam vətəndaş cəmiyyəti qurmaq və güclü dövlət yaratmaq üçün, ilk növbədə, ölkədə sabitlik və əmin-amanlıq olmalıdır. Yalnız ictimai asayişin bərqərar olduğu cəmiyyətdə inkişaf mümkündür. Ona görə də ümummilli lider Heydər Əliyev bu sahədə zəngin qanunvericilik bazası yaratmış, cinayətkarlığa qarşı mübarizə üzrə normativ-hüquqi aktlar, ən əsası isə "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Dahi şəxsiyyətin 1998-ci il 24 may tarixli Fərmanına əsasən isə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün – 2 iyul "Azərbaycan Polisi Günü" elan olunmuşdur.

Ulu öndərin müəllifi olduğu dövlət quruculuğu strategiyasını bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə daxili işlər orqanları da hərtərəfli qayğı ilə əhatə olunub. Maddi-texniki bazanın gücləndirilməsi, nizam-intizamın möhkəmləndirilməsi, kadr hazırlığına diqqətin, peşəkarlığın artırılması və polis əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması fəaliyyət üçün geniş imkanlar açmışdır. Dövlət başçısının müvafiq sərəncamları ilə ötən il polis əməkdaşlarının əməkhaqlarının 10, bu il isə 40 faiz artırılması əməyə verilən qiymətin və göstərilən qayğının bariz nümunəsidir.



Ulu öndərin inkişaf strategiyası Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Bu inkişaf və tərəqqi digər sahələrlə yanaşı, polis orqanlarını da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən muxtar respublikanın daxili işlər orqanlarına hərtərəfli qayğı göstərilir. Muxtar respublika daxili işlər orqanlarının maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması, Daxili İşlər Nazirliyinin mərkəzi aparatının inzibati binası da daxil olmaqla, bütün ərazi polis orqanları üçün müasir iş şəraiti olan inzibati binaların istifadəyə verilməsi, ən müasir xidməti avtomobillərin alınıb polis əməkdaşlarının istifadəsinə verilməsi göstərilən yüksək qayğının nəticəsidir. Bununla yanaşı, əməkdaşların məişət-sosial problemlərinin həlli də dövlət qayğısından kənarda qalmamış, bu istiqamətdə ardıcıl tədbirlər görülmüşdür.

Muxtar respublikada polis orqanlarına göstərilən diqqətin ən mühüm istiqamətini uğurlu kadr siyasəti təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin yaradılması kadr potensialının təkmilləşdirilməsinə, ən əsası isə müasir dövrün tələblərinə cavab verən gənc əməkdaşların hazırlanmasına mühüm töhfə verir. Hazırda Orta İxtisas Polis Məktəbi üçün müasir tədris kompleksi tikilir.



Ali Məclis Sədrinin düşünülmüş və uzaqgörən fəaliyyəti muxtar respublika əhalisinin əmin-amanlıq şəraitində yaşamasına, əhalinin polislə bağlı məsələlərinin yerindəcə həll edilməsinə şərait yaratmışdır. Polis sahə inspektorlarının say tərkibinin artırılması, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Səyyar Xidmətinin yaradılması, istifadəsində nəqliyyat vasitəsi olan vətəndaşların nəqliyyat vasitələrini müəyyən məsafə qət etmədən öz yaşadıqları əraziyə yaxın yerlərdə texniki baxışdan keçirmələri üçün Şərur, Culfa, Ordubad rayonlarında müayinə mərkəzlərinin tikilməsi, ictimai asayişin, eləcə də dövlət və şəxsi mülkiyyətin cinayətkar qəsdlərdən qorunması üçün Naxçıvan şəhəri ərazisində "Təhlükəsiz şəhər kameralarının quraşdırılması" və digər bu kimi tədbirlər muxtar respublika əhalisinin təhlükəsizliyinə və rahatlığına xidmət etməklə yanaşı, polisin fəaliyyətini də xeyli yaxşılaşdırmış, cinayətkarlığın səviyyəsinin minimum həddə endirilməsinə səbəb olmuşdur. Həyata keçirilən sosial-iqtisadi islahatların məntiqi nəticəsi olaraq muxtar respublikada möhkəm təməllərə söykənən və dinamik tərəqqini təmin edən ictimai-siyasi asayiş və sabitlik dayanıqlı xarakter almışdır.



Fəaliyyətin başlıca meyarı isə vətəndaşların polisin işinə verdiyi qiymət, ona olan inamdır. Bu məqsədlərə nail olmaq, vətəndaşlarımızın daha böyük etimadını qazanmaq üçün yeni iş metodları tətbiq edilir, hüquqazidd əməllərin qarşısının alınmasında və ictimai təhlükəsizliyin təmin edilməsində vətəndaş cəmiyyəti ilə əlaqələr möhkəmləndirilir. Şəxsi heyətin peşə hazırlığının, mənəvi dəyərlərə ciddi riayət ruhunda tərbiyə olunması işinin, əhalinin müxtəlif təbəqələri və kütləvi informasiya vasitələri ilə əlaqələrin yaxşılaşdırılması istiqamətində də zəruri tədbirlər həyata keçirilmişdir. Bütün bunlar da muxtar respublikada cinayətkarlığın dinamikasına müsbət təsir göstərmiş, muxtar respublikanı dünyanın ən təhlükəsiz regionlarından birinə çevirmişdir.

Göstərilən yüksək diqqət və qayğı polis işçilərinin məsuliyyətini artırır, şəxsi heyəti daha böyük əzmkarlıqla işləməyə sövq edir. Polis dövlətə, dövlətçiliyə sədaqətdə öndə olmağı özünün vəzifə və vətəndaşlıq borcu hesab edir. Ulu öndərin yeni, demokratik, qüdrətli Azərbaycan qurmaq ideallarını müvəffəqiyyətlə reallaşdıran ölkə rəhbərinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nazirlik sistemində fəaliyyətin canlanması üçün mühüm stimul olmuş, peşəkarlığın yüksəlməsində, qanunçuluğun və daxili təhlükəsizliyin möhkəmlənməsində, bütövlükdə, asayişin mühafizəsi sahəsində mühüm vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsində əvəzsiz rol oynamışdır.

*Naxçıvan polisi bundan sonra da göstərilən etimadı doğrultmaq üçün bütün qüvvə və vasitələri səfərbər etməklə dövlətçiliyin qorunması, asayişin və təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, həm də torpaqlarımızın azad olunmasında andına sadiq qalacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

# Gömrük işi sahəsində Azərbaycan-Türkiyə birgə təliminə start verilib



***İyul ayının 1-də Amerika Birləşmiş Ştatlarının Dövlət İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində Azərbaycan-Türkiyə birgə təliminə start verilib.***

Təlimin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli Azərbaycan Respublikasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında gömrük işinin səmərəliliyinin artırılması, innovativ layihələrin tətbiqi, gömrük prosedurlarının sadələşdirilməsi, qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarına, transmilli cinayətkarlığa qarşı mübarizə və sərhəd təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işlərdən danışıb. Qeyd olunub ki, gömrük işi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və iş prosesində tətbiqi, dünya ölkələrinin gömrük xidmətləri ilə qarşılıqlı faydalı əlaqələr və birgə əməkdaşlıq uğurlu nəticələr verib.

Amerika Birləşmiş Ştatlarının Dövlət İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramının əhəmiyyətini qeyd edən komitə sədri Azərbaycan-Türkiyə birgə təliminin səmərəli olacağına əminliyini vurğulayıb və təlimin işinə uğurlar arzulayıb.

Türkiyə Gömrük Xidmətinin Mühafizə Baş Müdirliyinin rəisi Yaşar Baltacı yaradılan şəraitə və göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edib.

ABŞ-ın Dövlət İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramının Türkiyə və Azərbaycan üzrə müşaviri Kis Roberts bildirib ki, təmsil etdiyi layihə Azərbaycanda 1999-cu ildən icra edilir. İstənilən qurumun səmərəli fəaliyyətinin başlıca şərtlərindən birinin əməkdaşların potensialının, bilik və bacarıqlarının artırılması olduğunu vurğulayan amerikalı ekspert Azərbaycan gömrüyünün bu sahədə atdığı addımların əhəmiyyətini önə çəkib.

Qeyd edək ki, 5 gün davam edəcək birgə təlimlər çərçivəsində amerikalı ekspertlər tərəfindən qaçaqmalçılıq hallarının aşkar edilməsi, nəqliyyat vasitələrinin yoxlanılması, texniki nəzarət vasitələrindən istifadə və riskin müəyyən edilməsi üsulları ilə bağlı təcrübə öyrədiləcək. Naxçıvan Şəhər və Sədərək Gömrük idarələrində praktik məşğələlər keçiriləcək.

Sonda iştirakçılara sertifikatlar təqdim olunacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

***Naxçıvan Qarnizonunda qadın hərbi qulluqçuların da cəlb edildiyi növbəti kursların uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.***

# Növbəti buraxılış mərasimi keçirilib

Buraxılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edənlər gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən gənclərə xidmətlərində uğurlar arzulayıblar.



Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Teymur Eyyubov bildirib ki, Vətənə sədaqətli, peşəkar hərbçi kadrların hazırlanması məqsədilə Naxçıvan Qarnizonunda müxtəlif ixtisas hazırlığı kursları təşkil olunur. Bu kursları uğurla bitirən məzunlar da, öz növbəsində, ordu sıralarında şərəf və məsuliyyətlə xidmət edirlər. İnanırıq ki, sertifikat almaq həyəcanı ilə sırada dayanan məzunlarımız da kurslarda əldə etdikləri nailiyyətlərlə kifayətlənməyəcək, bilik və bacarıqlarını daha da təkmilləşdirərək ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır olacaqlar.

Sonra kursları müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerdə başa vuran məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Nəriman NƏCƏFOV**

## "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının təqdimatı olmuşdur




*İyunun 29-da Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçmiş deputatı, 1989-1992-ci illərdə Naxçıvan Qarnizonunun rəisi olmuş general-mayor Rostislav Slaboşeviçin "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının təqdimat mərasimi keçirilmişdir.*

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək demişdir ki, bu gün təqdimat mərasimi keçirilən yeni nəşrin müəllifi Rostislav Slaboşeviç 1949-cu il iyunun 25-də Minsk şəhərində anadan olmuşdur. 1966-cı ildə Xarkov Ali Tank Komandirləri Məktəbinə daxil olmuş, oranı bitirdikdən sonra 1975-ci ilə qədər Belarusda müxtəlif hərbi vəzifələrdə xidmət etmişdir. 1979-cu ildə Frunze adına Hərbi Akademiyanı bitirdikdən sonra Zaqafqaziya Hərbi Dairəsinə alay komandirinin müavini təyin olunmuş və Gürcüstanın Duşeti şəhərində xidmət etmişdir. 1983-cü ilin avqustunda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Qıvraq kəndində yerləşən hərbi hissədə alay komandirinin birinci müavini təyin edilmiş, 1984-cü ildə isə Gəncə şəhərinə alay komandiri vəzifəsinə keçirilmiş, orada diviziya komandirinin müavini vəzifəsinədək yüksəlmişdir. 1989-cu ildə yenidən Naxçıvana qayıtmış, buradakı 75-ci Motoatıcı Diviziyaya komandir təyin edilmiş və 1992-ci ilə qədər bu vəzifədə çalışmışdır.

Diqqətə çatdırılmışdır ki, Naxçıvanda olduğu illərdə o, alay komandiri, diviziya komandirinin müavini və diviziya komandiri vəzifələrində xidmət etmiş, əvvəlcə polkovnik-leytenant və polkovnik, daha sonra isə general-mayor rütbəsinə qədər yüksəlmişdir. Naxçıvan Muxtar Respublikasında xidmət etdiyi zaman Slaboşeviç ictimai-siyasi fəaliyyəti ilə də seçilmiş, yerli əhalinin milli adət-ənənələrinə olan münasibətinə görə ictimaiyyət arasında böyük hörmət qazanmışdır. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə diviziyanın silahlarının, hərbi sursatının qorunub saxlanılması və Azərbaycan Ordusuna təhvil verilməsi üçün böyük səy göstərmişdir. Eyni zamanda diviziyanın şəxsi heyəti ilə Naxçıvan əhalisi arasında mehriban münasibətlərin, dostluq əlaqələrinin yaranmasına nail olmuşdur. Naxçıvanın müdafiəsində və Sədərək istiqamətində asayişin bərpa olunmasında göstərdiyi xidmətlər Rostislav Slaboşeviçin əhali arasında nüfuzunu xeyli artırmışdır.

Cəlil Rüstəmov Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası qarşısındakı xidmətlərinə görə Rostislav Slaboşeviçə Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından təşəkkürünü bildirmiş, anadan olmasının 70 illiyi və müəllifi olduğu "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının təqdimatı münasibətilə onu təbrik etmişdir.





Bildirilmişdir ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətdə nəşr olunmuş "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabı ötən əsrin 90-cı illərində Naxçıvanın ağır sosial-iqtisadi və siyasi vəziyyəti ilə bağlı proseslərə həmin dövrün mühüm vəzifəli şəxsinin gözü ilə baxmağa imkan verir. Kitabda müəllifin şəxsən iştirak etdiyi əhəmiyyətli ictimai və dövlət fəaliyyəti ilə bağlı faktlar toplanmışdır. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının müdafiəsi ilə bağlı gördüyü mühüm işlər generalın şahidi olduğu tarixi proseslər kimi oxucuya çatdırılır. Bununla yanaşı, ulu öndərin Naxçıvanda yerləşən sovet ordusunun şəxsi heyətinin yerli əhali ilə münasibətlərinin tənzimlənməsindəki xidmətləri, xüsusilə dağılmış sovet iqtisadiyyatı şəraitində qoşun hissələrinin təminatına xüsusi diqqət yetirdiyi önə çəkilir. Müəllif ümummilli liderin gərgin iş şəraitində olmasına baxmayaraq, həmin dövrdə Naxçıvanda rusdilli məktəbin fəaliyyətinin bərpa etməsini böyük minnətdarlıqla qeyd edir. Bu mənada, Rostislav Slaboşeviçin kitabı 1989-1992-ci illərdə muxtar respublikada baş verən ictimai-siyasi hadisələrin öyrənilməsində yeni yanaşmanı ortaya qoyan mühüm tarixi sənəddir.

Vurğulanmışdır ki, kitabda Naxçıvan mətbəxinin zənginliyinə, Naxçıvan əhalisinin qonaqpərvərliyinə, Naxçıvanın təbiətinin gözəlliyinə həsr olunmuş ayrıca bölmələr də vardır. Müəllif kitabda həmin dövrlə bugünkü Naxçıvanı müqayisə edərək inkişafın heyrətamiz olduğunu, muxtar respublika rəhbərinin Naxçıvanın müdafiəsi və qorunması üçün böyük işlər gördüyünü, müasir ordu yaradıldığını, əhalinin həyat səviyyəsinin yüksəldiyini böyük qürurla qeyd edir, kitabın nəşrini Naxçıvan və naxçıvanlılar qarşısında mənəvi borcun ifadəsi kimi dəyərləndirir.

1992-ci il avqustun 18-də 75-ci Motoatıcı Diviziyanın silah-sursatının Naxçıvana təhvil verilməsi mərasimində ümummilli lider Heydər Əliyev demişdir: ***"Biz belə hesab edirik ki, 75-ci Diviziyanın tərkibində xidmət etmiş hərbi qulluqçular öz vətənlərinə – Rusiyaya, Ukraynaya, Belarusiyaya qayıtdıqdan sonra belə Naxçıvanla öz əlaqələrini kəsməyəcək, Azərbaycanla həmin dövlətlər arasında əlaqələrin yaradılmasında öz səylərini əsirgəməyəcəklər".*** Bu gün Rostislav Slaboşeviçin yenidən Naxçıvanda olması, "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabını yazması onun ulu öndər Heydər Əliyevin tövsiyələrinə nə dərəcədə sadiq olduğunu bir daha təsdiq edir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Əlahiddə Ümumqoşun Ordunun komandiri, general-leytenant Kərəm Mustafayev, keçmiş hərbi qulluqçu Sahib Səfərov çıxış edərək bildirmişlər ki, ötən əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə çətin sınaqlardan üzüağ çıxaraq bu gün özünün hərtərəfli inkişafını təmin etmişdir. Məhz ulu öndərin əvəzolunmaz xidmətləri sayəsində muxtar respublikada ilk milli ordu hissələri yaradılmış, Naxçıvanın təhlükəsizliyi təmin edilmişdir. Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Sovet İttifaqı, sonra isə Rusiya Federasiyasına məxsus silah-sursat, hərbi texnika, təsərrüfat əmlakı və texniki qurğular Azərbaycanın sərəncamına verilmiş, ölkəmizin digər bölgələrindən fərqli olaraq burada heç bir dağıntı və talana yol verilməmişdir. Naxçıvanda yerləşən 75-ci Motoatıcı Diviziyanın zabit və əsgər heyəti, onların ailə üzvləri, başda diviziya komandiri general Rostislav Slaboşeviç olmaqla, 1992-ci ilin avqust ayının 18-də xüsusi təyyarə ilə yola salınmışlar. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəvəti ilə general Rostislav Vyaçeslavoviç Slaboşeviçin 70 illik yubileyində yenidən Naxçıvanda olması qədirbilən xalqımız üçün xüsusi xidmətləri olmuş insanların unudulmayacağının bariz nümunəsidir.

Çıxış edənlər general Slaboşeviçi 70 illik yubileyi və ərsəyə gətirdiyi "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabına görə təbrik etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçmiş deputatı, 1989-1992-ci illərdə Naxçıvan Qarnizonunun rəisi olmuş general-mayor Rostislav Slaboşeviç "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının yüksək poliqrafik keyfiyyətdə nəşrinə və yüksək səviyyəli təqdimatına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmiş və imzaladığı kitabın bir nüsxəsini Heydər Əliyev Muzeyinin kitabxanasına hədiyyə etmişdir.

**"Şərq qapısı"**

## Qısamüddətli təlim təşkil edilib



*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində şəhər və rayon idarələrinin əməkdaşları üçün "Torpaqların idarə edilməsi, onların istifadəsinə və mühafizəsinə dövlət nəzarəti" mövzusunda qısamüddətli təlim keçirilib.*

Təlimi giriş sözü ilə komitənin sədri Müslüm Cabbarzadə açaraq bildirib ki, muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının möhkəmləndirilməsi məqsədilə əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsinə diqqət artırılıb, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizmi mütəmadi olaraq təkmilləşdirilib.

Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyev "Torpaqların idarə edilməsinin əsasları" mövzusunda çıxış edərək bildirib ki, komitə torpaqların səmərəli idarə olunmasında, kadastr uçot işlərinin aparılması istiqamətində elmi yeniliklərdən istifadə etməklə fəaliyyətini daha da təkmilləşdirib.

Komitənin Yerquruluşu, torpaq ehtiyatlarından istifadə və geodeziya, xəritəçəkmə işləri sektorunun müdiri Oqtay Məmmədov isə çıxışında qeyd edib ki, dövlət tərəfindən torpaqların mühafizəsi, təyinatı üzrə istifadəsi, qeyri-qanuni istifadə hallarının qarşısının alınması məqsədilə mühafizə zonaları müəyyənləşdirilib. Fiziki və hüquqi şəxslər, bələdiyyələr mülkiyyətlərində olan torpaqlardan məqsədli təyinat üzrə istifadə etməli, dövriyyədən əsassız çıxarılmasına yol verməməli, onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş qaydada tədbirlər görməli, əhali məlumatlandırılmalıdır.

Komitənin Torpaq kadastrı və qeydiyyatı sektorunun aparıcı məsləhətçisi Samir Əkbərovun "Torpaq sahəsinin planı və ölçüsü" mövzusunda çıxışı dinlənilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

✍ **Pərviz HACILI**

## "Cahan Pen plastik məmulatları istehsalı və satışı" Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac imkanları artır






*Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın aparıcı sahəsi kimi sənayenin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan yüksək texnologiyanın tətbiqi ilə işləyən sənaye müəssisələrinin yaradılması və hazır məhsulların ixrac bazarlarında reallaşdırılması iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfədir.*

Bu günlərdə "Cahan Pen plastik məmulatları istehsalı və satışı" MMC-nin istehsalı olan inşaat materiallarının Rusiya bazarlarına ilk ixracı bu sahədə qazanılan uğurların davamıdır.

Bu barədə cəmiyyətdən aldığımız məlumatda bildirilir ki, 2018-ci ildə əsaslı investisiya qoyuluşundan sonra yenidən istifadəyə verilmiş müəssisədə istehsal olunan 7 növdə, 160 adda məhsula həm daxili bazarlarda, həm də xaricdə tələbat artır. Azərbaycan brendi kimi ixrac edilən bu məhsullar arasında PVC qapı-pəncərə profil və aksesuarları, hər ölçüdə içməli su və istiliyə davamlı kompozit borular, 120 adda fitinqs məmulatları mühüm yer tutur. "Magna" əmtəə nişanı ilə xaricə ixrac olunan və Rusiyanın Moskva şəhərinə ilk olaraq 23 ton həcmdə göndərilən məmulatların bu ölkədə yerli istifadəçilər tərəfindən həvəslə alınacağı gözlənilir. "Cahan Holdinq" Şirkətlər İttifaqının Rusiya Federasiyasında açılmış satış ofisi bununla bağlı zəruri işləri də həyata keçirir. Qeyd edək ki, bundan əvvəl "Cahan Holdinq"in Türkiyənin İqdır şəhərində də satış ofisi fəaliyyətə başlayıb. Eləcə də digər ölkələrə də ixrac olunması nəzərdə tutulan plastik məmulatlar 300-ə yaxın işçisi olan müəssisənin iş imkanlarının daha da genişlənməsinə və muxtar respublikamızın xarici ticarət dövriyyəsinin artmasına mühüm töhfə verəcək.

✍ **Əli CABBAROV**

## Növbəti imtahanlar keçirilib

Dövlət İmtahan Mərkəzi tərəfindən iyunun 30-da ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olmaq istəyən əvvəlki illərin məzunları, əvvəlki illərdə təhsil sənədi ala bilməyən və eksternat qaydasında imtahan verən məzunları, üzrlü səbəbdən bu ay keçirilən buraxılış imtahanlarının (IX sinif) ikinci mərhələsində iştirak edə bilməyən cari ilin məzunları, orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində orta məktəbdə təhsil aldıqları bölmədən fərqli bölmə üzrə iştirak etmək istəyən Azərbaycan və ya rus dili fənləri üzrə imtahan verən cari ilin məzunları, orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak imtahanı çərçivəsində verilən xarici dil fənnindən fərqli xarici dil fənni üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün imtahanlar keçirilib.

İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəki, Zaqatala, Qax, Balakən, Bərdə, Göyçay, Şirvan, Xaçmaz və Lənkəran şəhərlərində təşkil olunub. Eyni vaxtda – saat $11^{00}$-da başlanıb, 3 saat davam edən imtahanda 6461 nəfər iştirak edib. İmtahanların idarə olunmasına 21 ümumi imtahan rəhbəri, 50 imtahan rəhbəri, 536 nəzarətçi-müəllim ayrılıb.

Naxçıvan Muxtar Respublikasında Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən, 336 abituriyentin iştirak etdiyi imtahana 32 nəzarətçi-müəllim, 300 imtahan rəhbəri cəlb edilib. İmtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Nəticələr yaxın günlərdə elan ediləcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**




# Gəncliyin dəyişməz əyləncə məkanı – “Görüş yeri”

***Doğma və qədim diyarımızın gündən-günə çiçəklənməsi, sosial-iqtisadi inkişafı və mövcud turizm imkanları tələbata uyğun yeni xidmət sahələrinin yaradılmasını da zərurətə çevirir. Aparılan quruculuq işlərində də bu amil əsas götürülür.***

Xüsusən yay aylarında həm yerli sakinlər, həm də muxtar respublikamıza gəlmiş qonaqlar şəhərimizdəki müasir restoran və digər iaşə müəssisələrinin xidmətlərindən tez-tez istifadə edir, istirahətlərini yaxşı keçirməyə çalışırlar. Naxçıvan şəhərində müasir memarlıq üslubunda tikilən “Görüş yeri” kafesi də fəaliyyətə başladığı dövrdən yerli sakinlərin və şəhərimizin qonaqlarının sevimli məkanına çevrilib.

Fotomüxbirimizlə birlikdə işdən sonra həm istirahət etmək, həm də kafe haqqında məlumat əldə etmək üçün sözügedən ünvana yola düşürük. Bizi kafedə müəssisə rəhbərinin köməkçisi Emin Ələkbərli qarşılayır. Söhbətimiz zamanı bildirir ki, başlıca məqsədimiz müştərilərə yüksəkkeyfiyyətli xidmət etməkdir. Gülərüz personalın göstərdiyi operativ və mədəni xidmətlə yanaşı, gələn qonaqların rahat istirahəti üçün burada hər cür şərait yaradılıb. Xeyli sayda işçinin çalışdığı restoranda qonaqları qarşılayıb yola salan xidməti personalın peşəkarlığına, əcnəbi dil bilməsinə xüsusi fikir verilir, onların əməkhaqlarının yüksək olması da diqqətdə saxlanılır.

Emin Ələkbərli bizi müəssisənin bölmələri ilə də tanış edir. O deyir ki, “Görüş yeri” kafesi 2018-ci ildən fəaliyyətə başlayıb. Ötən müddət ərzində müəssisənin xidmətlərindən istifadə edənlərin sayı xeyli artıb. Kafe zirzəmi ilə birlikdə üç mərtəbədən ibarətdir. Ümumi sahəsi 2457 kvadratmetr olan kompleks 3 fərqli istiqamət üzrə fəaliyyət göstərir. Binanın birinci mərtəbəsində “Bullet” Steak House xüsusi reseptləri əsasında ət və ət məhsullarından müxtəlif təamlar hazırlanır. Menyu üzrə hər bir təamın xammalının öz xüsusi saxlanma üsulu və temperaturu var. Restoranın mətbəxində hazırlanan yeməklər xüsusi kulinar incəliklərə diqqət yetirilərək və vizual servisə önəm verilərək müştərilərə təqdim olunur. Xalqımızın milli mətbəxinə, eləcə də dünya mətbəxinə xas olan yeməklərin ustalıqla hazırlanıb yüksək zövqlə masalara təqdim olunması üçün hər detala diqqət edilir, keyfiyyət tələbinə ciddi yanaşılır.

Emin müəllim bizi binanın birinci mərtəbəsi ilə tanış edərkən sevinclə bir-biri ilə sohbətləşən, şən gülüşləri ətrafa dolan uşaqlar diqqətimi çəkdi. Onların masasına yaxınlaşdım. Nəvələri ilə istirahət edən Rauf Bayramov burada ilk həmsöhbətim oldu. O qeyd etdi ki, elə ki tətil vaxtı gəldi, insanlar bütün yorğunluqlarını istirahətlə əvəzləmək istəyirlər. Əvvəllər belə gözəl şəraitə malik müəssisələr olmadığından insanlar öz istirahətlərini lazımınca təmin edə bilmirdilər. Zaman xeyli dəyişib, muxtar respublika sakinlərinin hər biri ölkəmizdə geniş vüsət alan sosial-iqtisadi inkişafı bütün sahələrdə, şəxsi həyatında hiss edir.





Həmsöhbətim deyir ki, gözəl istirahət etmək, mənalı vaxt keçirmək istəyənlər üçün “Görüş yeri” kafesi əla yerdir. Bura mənim nəvələrimlə vaxt keçirdiyim gözəl məkanlardan biridir. Buraya gələn zaman bizi xoş qarşılayır, gözəl xidmət göstərirlər. Yeməkləri dadlıdır və menyuda çeşid boldur. Ən əsası isə qiymətlər də münasibdir. Mən də nəvələrimlə tez-tez buraya gəlib təamlardan dadır, istirahət edirik.

Həmsöhbətimdən ayrılıb bina ilə tanışlığımızı davam etdiririk. Öyrənirik ki, binanın ikinci mərtəbəsində, əsasən, “CHEF” markası ilə fastfood yeməklər hazırlanır. “CHEF” markası muxtar respublikamızda yaradılmış dünya standartlarına cavab verən fastfood məhsullarının ümumi adıdır. Bu yeməklərin hazırlanmasında yerli ərzaq məhsullarından istifadə olunur. Markanın məqsədi yüksəkkeyfiyyətli məhsullar ilə müştərilərə xidmət göstərmək, yerli məhsulların dadlarını və mətbəx ənənəmizi dünyaya yaymaqdır.

Qeyd edək ki, burada istifadə edilən avadanlıqlar dünyanın inkişaf etmiş ölkələrinin standartlarına tam cavab verir. Fastfood yeməklərinin hazırlandığı özünəxidmət prinsipi ilə fəaliyyət göstərən bu məkan günün istənilən saatında gənclərin daha çox üz tutduğu yerdir. Binanın bölməsi ilə tanış olduğumuz zaman öz yeməklərini götürüb masa ətrafında əyləşən gənclərə yaxınlaşır və onların kafe haqqında təəssüratlarını öyrənirik.

Naxçıvan Dövlət Universitetinin tələbəsi olan Adebusalo Owoade qeyd edir ki, bu kafe universitet imtahanlarından sonra stress və yorğunluğumuzu çıxarmaq məqsədilə üz tutduğumuz məkandır. Ona görə ki, Naxçıvanda ən yaxşı fastfood yeməkləri məhz bu kafedə hazırlanır. Bundan əlavə, bir tələbə üçün ən əsas məsələ qiymətlərin münasib olmasıdır. Kafedə bizim ən çox müraciət etdiyimiz fastfood yeməklərinin hamısının qiyməti bizim üçün uyğundur. Yoldaşlarımızla vaxtımızın çoxunu burada keçiririk.

Daha sonra üçüncü mərtəbədə yerləşən “Chocha” şokolad evi ilə tanış oluruq. Öyrənirik ki, bu şokolad evi Naxçıvanda yaranmış yerli bir markadır. Şokolad evində isti və sərinləşdirici içkilər, müxtəlif şokoladlar, həmçinin xüsusi qablaşdırılmış müxtəlif müalicəvi otlar, meyvə quruları, çərəzlər təqdim edilir. Burada “Chocha” adı altında hazırlanmış xüsusi hədiyyəlik paketlər də əldə etmək mümkündür. Eyni zamanda burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən oxunması zəruri olan kitablardan ibarət kitabxana da yaradılıb.

Şokolad evində diqqətimizi çəkən məqam buranın çox sakit olması idi. Səbəbini soruşduqda bildirildi ki, buraya müraciət edən müştərilər onlar üçün yaradılan kitabxanadan istifadə edərək mütaliə edirlər. Bu səbəbdən də onlara daha rahat şəkildə mütaliə etmələri üçün kitabxana aurası yaradılıb.

Burada mütaliə edənlər az deyildi. Onlardan biri – Zeynəb Alışova ilə həmsöhbət olduq. O qeyd etdi ki, Naxçıvan Dövlət Universitetinin tələbəsidir. Asudə vaxtlarında rəfiqələri ilə birlikdə kafeyə gəlir, burada yeməklərdən yeyir, şokolad evində isə çay süfrəsi arxasında mütaliə edirlər.

Zeynəb Alışova deyir ki, belə yerlərin fəaliyyət göstərməsi, xüsusən gənclər üçün çox sevindiricidir. Çünki asudə vaxtlarını həm nəfis təamlardan dadaraq, həm də mütaliə edərək keçirə bilirlər.

Burada mütəmadi olaraq sakinlərin istirahətlərini daha mənalı keçirmələri üçün konsert proqramları təşkil olunur, həftədə bir neçə dəfə müştərilərə canlı musiqi xidməti də göstərilir. Bundan əlavə, müştərilər özəl günlərini bu məkanda keçirmələri üçün də kafemizə müraciət edə bilərlər.

Şübhəsiz, təkcə ölkəmizin deyil, dünyanın ən təmiz, gözəl şəhərlərindən biri olan Naxçıvanda fəaliyyət göstərən belə xidmət obyektləri həm muxtar respublika sakinlərinin mənalı istirahətinə, həm əlavə turist cəlbinə, həm də yeni xidmət sahələrinin yaranmasına imkan verir.

✍ **Pərviz HACILI**

## Naxçıvan Muxtar Respublikası üzrə 1 iyul 2019-cu il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1035 | 393 | 1145 | 29,1 |
| 2. | Şərur rayonu | 4127 | 320 | 1016 | 31,8 |
| 3. | Babək rayonu | 10610 | 3951 | 12177 | 30,8 |
| 4. | Ordubad rayonu | 1685 | 1225 | 3498 | 28,6 |
| 5. | Culfa rayonu | 6553 | 2680 | 8068 | 30,1 |
| 6. | Kəngərli rayonu | 5210 | 2870 | 8457 | 29,5 |
| 7. | Şahbuz rayonu | 1616 | - | - | - |
| 8. | Sədərək rayonu | 2472 | 572 | 1958 | 34,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33308** | **12011** | **36319** | **30,2** |

# “Yay məktəbi”nə start verilib

*Şahbuz rayonunda yerləşən Ağbulaq İstirahət Mərkəzində təşkil olunan “Yay məktəbi”nə start verilib.*



Mərkəzin ilk qonaqları aztəminatlı, qaçqın və məcburi köçkün, şəhid ailələrinin uşaqları, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar olub. Ümumilikdə, 45 uşağın iştirak etdiyi dördgünlük “Yay məktəbi”ndə Ağbulaq kəndi ərazisinə ekskursiya, müxtəlif idman və əyləncəli oyunlar, yazı və digər müsabiqələr, intellektual yarışlar, diskussiya və seminarlar, oxunması zəruri olan kitabların mütaliə və müzakirəsi təşkil edilib. Bundan başqa, Azərbaycan filmləri nümayiş olunub, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının kollektivi tərəfindən səhnəciklər də göstərilib, Şahbuz Rayon Mədəniyyət Şöbəsinin musiqiçiləri konsert proqramı ilə çıxış ediblər.

İstirahət müddətində keçirilən müsabiqə və yarışlarda fəallıq göstərən uşaqlar mükafatlandırılıblar. “Yay məktəbi” müddətində uşaqlar Naxçıvan mətbəxinin ləziz yeməkləri ilə təmin olunublar.

Qeyd edək ki, “Yay məktəbi” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurası tərəfindən təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Cüdoçularımızdan böyük uğur



19-26 iyun 2019-cu il tarixlərdə Türkiyənin Rizə şəhərində cüdo üzrə təlim-məşq toplanışı keçirilib. Həmin toplanışda Azərbaycan komandasının tərkibində Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının iki idmançısı da iştirak edib.

Təlim-məşq toplanışı bitdikdən sonra Trabzon şəhərində cüdo üzrə Qara dəniz turniri keçirilib. Turnirdə iştirak edən iki idmançımız uğurlu nəticələrlə adlarını qaliblər sırasına yazdırıblar. Belə ki, Rauf Cabbarov 55, Qalib Qaybalıyev isə 50 kiloqram çəki dərəcəsində gümüş medal qazanıblar.

Qaliblər diplom və medallarla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Yanğın təhlükəsizliyi qaydalarının pozulması və ya yerinə yetirilməməsi hansı məsuliyyətə səbəb olur?***

**Cavab:** İnzibati xətalar qanunvericiliyinə əsasən mülkiyyət formasından asılı olmayaraq, müəssisə, idarə və təşkilatlarda, ictimai yerlərdə, anbarlarda, yataqxanalarda və ya digər yaşayış sahələrində, meşələrdə və nəqliyyatda yanğın təhlükəsizliyi standartlarının, normalarının və qaydalarının tələblərinin pozulmasına və ya yerinə yetirilməməsinə görə fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar iyirmi manatdan otuz manatadək məbləğdə cərimə edilir. Vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər isə üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə cərimə edilir. Eyni hərəkətlərin yanğına qarşı xüsusi rejim şəraitində törədilməsinə görə fiziki şəxslər otuz manatdan əlli manatadək, vəzifəli şəxslər yüz əlli manatdan iki yüz manatadək, hüquqi şəxslər isə beş yüz manatdan yeddi yüz əlli manatadək məbləğdə cərimə edilirlər.

Həmçinin əkin yerinin yandırılmasına görə, fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək, hüquqi şəxslər isə beş min manatdan altı min manatadək məbləğdə cərimə edilirlər.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

### İtmişdir

İbrahimov Tahir Yusif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Maxta kənd sakini Baxşəliyev Məhərrəm Əli oğlunun adına verilmiş JN-290 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Zeynallı Müşviq Yadulla oğlunun adına olan MH-0064841 və MH-0064840 inventar nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Zeynallı Müşviq Yadulla oğlunun adına olan 004241 və 004701 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Bayram Becan oğlunun adına olan 0003977 seriya nömrəli torpaq sahəsinin çıxarış, plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 437